# ÜSTÜN OLAN İNSANLIQ

## *Məlahət Soltanqızının "Xəyanətin bədəli" poeması haqqında*

***(Əvvəli ötən saylarımızda)***

Həyatın ağrı-acılarına hətta iradəsi möhkəm adamların da dözməyi, davam gətirməyi çətin olur. Elə insanlar var ki, müəyyən zaman daxilində mənəvi dəyərləri daha uca tutur. Bütün varlıqları ilə dəyərləri qorumağı həyatları üçün əsas məna hesab edirlər. Qüruru, ləyaqəti uca tutmaq, əlbəttə, vacibdir. Ancaq o yerdə ki, qüruru, ləyaqəti qorumaq hissi bir günahsızın qətli ilə nəticələnir, belə qüruru, belə ləyaqəti kimsə uca tuta bilməz. Əlbəttə, hər hansı bir qatil həm də qanun qarşısında cavabdehdir. Şahnabat həyatın gözlənilməzliklərinə psixoloji cəhətdən hazır deyildi. Onun yaşadığı hisslər özünün təsəvvürünə görə ali sevgi duyğularıdır. Şübhəsiz, hər bir gənc sevgi duyğularını uca tutmalı, sevgiyə ali qanun kimi baxmağı bacarmalıdır. Amma o başqa məsələdir ki, hər bir gəncin, xüsusilə gənclər üçün çox vacibdir ki, intuisiya ilə hisslərinin onu haraya çəkdiyini qabaqcadan bilsin, başa düşsün. Əslində Şahnabat öz inamının qurbanı olub. O, sonsuz bir istəklə sevdiyi oğlanın nəvazişlərinə uyub.

Bütün zamanlarda cinayəti yaradan səbəblər həmişə qanunun diqqət mərkəzində olub. Cinayətin törənməsinə səbəb olan şəxs özü də cinayətkarla birlikdə mühakimə olunmalıdır. Şahnabatın timsalında isə cinayətkar onun özü olsa da, onu cinayətə sürükləyən səbəb və yaxud da şəxs, əgər belə demək mümkünsə, aradan çıxıb, bütün mənəvi məsuliyyət hamısı Şahnabatın üzərində qalıb.

Ali qadınlıq duyğuları... bunun dəyərini bilmək, bu duyğuları uca tutmaq patriarxal cəmiyyətin pozulmaz qanunu olaraq insanlığın idarə olunmasında mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, qadının özünün məsuliyyəti də unudulmamaq şərti ilə.

Qadının ucalığı həm də onun qəlbindən gələn istəyin gətirdiyi dözülməzliklərə tab gətirməsi ilə nizamlanır. Qadın istəyinin əksinə olaraq, öz sağlam düşüncəsi ilə və real həyati amilləri nəzərə alaraq iradəsini idarə etməlidir. Məhz Şahnabat öz iradəsini idarə edə bilmədiyi üçün çıxılmaz bir vəziyyətə düşməli olur.

Bütün hallarda Şahnabat qatildir. Hətta qanundan gizlənsə belə, vicdanının mühakiməsindən kənarda qala bilmir. Öz körpəsini əlləri ilə dənizə atıb. O bundan sonra geriyə baxmadan baş götürüb gedə bilərdi. Amma gedə bilmir. Ayaqları onu aparmır. Övladı üçün məzara çevrilmiş olan dənizə - çırpınan ləpələrə baxır. Başqa heç kimsənin anlamadığı dildə bu dənizin dalğaları onunla danışır, onu mühakimə edir.

Şahnabat uzaqlaşdı
Sanki dəniz dil açdı.
Ləpələr dil-dil ötüb
Bir-biriylə dalaşdı.
Bu acı müsibətin
Yükün çəkmək asanmı?
Dalğalar şahə qalxdı
Sahili, yudu, yaxdı
Günah böyük günahdı
Sular yumaz bu ahı

Əlbəttə, Şahnabat özü də yaxşı başa düşür ki, onun törətdiyi cinayətin günahını dənizin bütün suları onun üzərinə axsa belə, yenə yuyub təmizləyə bilməz. Müəllifin bu acı mənzərəni təsvir etməsi oxucunun da ruhuna sirayət edir. Oxucu sanki Şahnabatın iztirablarını öz varlığında duyur. Elə bil ki, dənizlə danışan Şahnabat deyil, oxucunun özüdür. Çünki bu mənzərə sözün həqiqi mənasında övladının qatili olmuş bir ananın yaşadığı acının mahiyyətini bütün reallığı ilə üzə çıxara bilir. Əsərin bu hissəsində Şahnabatın əhvalı ilə payızın soyuq, iliklərə işləyən sazaqqarışıq küləyi də sanki eyni simin ahəngində duyulur.

Şahnabat bətnində gəzdirdiyi övladının hələ dünyaya gəlmədiyi vaxtlardakı hərəkətini canında hiss edir. O, həmin körpə ilə hələ dünyaya gəlməmiş nələr danışmışdı, hansı hissləri yaşamışdı. Bütün bunları yaddaşında təzədən arayır. Elə bil ki, övladı dünyaya gəlməyib, hələ dənizə də atılmayıb. Beləliklə, yaşamağın və yaşatmağın dəyəri Şahnabatın nəzərində dəyişməkdədir. Bu vəziyyətdə Şahnabat şirin dili ilə onu aldatmış uşağın atası olan şəxsi də gözlərinin önünə gətirir. Bu zaman sanki öz övladını öldürərkən sanki onu aldatmış şəxsdən qisas alır. Şahnabatın bütün hallarda düşüncələri çox ağrılıdır. Yaddaşları göynədəndir. Onun varlığını didib-sökən bir acılıq təəssüratı yaradır.

İndi Şahnabat necə yaşayacaqdı? Ömrünü sakit başa vura biləcəkdimi? Heç özü də buna inanmır. Bütün həyatı boyu vicdanının mühakiməsi qarşısında həmişə günahkar olaraq cəza çəkəcək - vicdan cəzası. Onu da qeyd edək ki, müəllif əsərini elə "Vicdanın cəzası" da adlandıra bilərdi. Bu cəzanın ağırlığı ən sərt cəzalarından belə üstündür, daha betərdir.

Şahnabat payızın üşütmə gətirdiyi soyuq küləklərin qarşısında qalıb. Əgər həmin anlarda başqalarını müşahidə edən olsaydı, onların heç də bu payız küləyindən üşüməmdiyini də görmək olardı. Amma Şahnabatı payızın heç də sərt olmayan küləyi üşütməkdədir. O artıq vicdan qarşısında öz günahını dərk edir, bunun nə qədər ağır olduğunu anladığı üçün bədəni tir-tir əsir. Özü öz sualları qarşısında ona bəraət gətirəcək heç bir cavab tapa bilmir.

Payızın son ayıdı...
Şaxta sarmış havanı
Sahildən uzaqlaşdı.
Soyuq skamyalardan
Birinə yaxınlaşdı.
Oturdu...
Oturdu səssiz-səssiz.
Çökdü...
İnanmadı, gerçəkmi həyatında olanlar?
Bakının şaxtalı, soyuq küləyi
Yaladı üzünü dəldi ox kimi
Ruhunu çeynədi olub-bitənlər
Taleyin amansız oyunlarına
Tab gətirə bilmir...
Bu nə idi belə...
Bu acı gözündən getməz bir daha
Bu dərdlə yaşamaq,
Bir ömrü başa vurmaq, elə asan deyildi.
Sakitcə pıçıldadı: - Mən kiməm?
- Bir övlad qatili
Bəs o?
Namuslu bir qızın
Taleyilə oynamaq,
Heç nə olmamış kimi,
Onu ortada qoymaq...

Əlbəttə, Şahnabat özünə təskinlik üçün heç bir cavab tapmasa da, öz övladını məhv edərkən keçirdiyi hisslərin nə demək olduğunu indi başa düşür. Amma onun qəlbində onu aldadan şəxsə nifrət o qədər böyükdür ki, öz əməli ilə qisasını aldığını düşünür.

İnsanın varlığını, mənəviyyatını didib-sökən hisslərdən biri də qisasçılıq hissidir. İnsanlar olub-keçən hadisələri soyuq başla təhlil etməli, varlığını kinə doğru, qərəzə doğru sürükləyən hisslərə qarşı durmağı bacarmalıdır. Yalnız bu zaman insan üstünə gələn qərəz qasırğasının qarşısında dayana bilər. Onun varlığını saran, mənəviyyatını dağıdan kini boğa bilər. Yalnız bununla qisasçılıq hissindən qurtulmaq imkanı yaranar.




Müəllif övlad qatili olmuş ananın hisslərinə təkrar-təkrar qayıdır. Onun yaşadığı duyğuları bu qədər təfərrüatına vararaq təsvir etməsi də təsadüfi deyil. Axı bu bir həyat hadisəsidir. Başqaları da belə bəlaya düçar ola bilər. Bu əsərin bir neçə cəhətdən insanlara təsir imkanları var. Əvvəla Şahnabatlar tək deyil. Həyatın saxta, şirin vədlərinə asanlıqla inanmaq, yalan nəvazişlərin toruna düşmək yalnız bədbəxtlik gətirir. Bunu müəllif yaxşı bildiyi üçün sanki gənclərə bir ibrət mənzərəsi yaradır. Müəllifin təlqinindən belə anlamaq olur ki, hər hansı bir gənc səhvə yol verərsə, onun da varlığından soyuq payız küləkləri əsib-keçər. Zənnimcə, müəllifin payız obrazını, payız küləklərini belə acılıqla təsvir etməsinin də səbəbi var. Payız ilin sonudur. Payızdan sonra təbiət sanki yuxuya gedir və təzədən oyanmaq zamanını gözləyir. Əslində övladının qatili olmaqla Şahnabat da gəlib ömrünün payızına çatıb. O artıq nəfəs alsa da, yaşasa da, qərəz qarışıq duyğularla onu aldadanı ittiham etsə də, hətta ondan qisasını almış kimi özünü təsəvvür etsə də, vicdanının cəzasından yaxasını qurtara bilmir və sanki özünün mənəvi ölümü ilə qarşılaşır.

Çox üşüyürdü canı
Özü də anlamırdı,
Ruhundakı üsyanı
Sanki yuxudaydı, bu donmuş vücud
Sanki onun deyildi
Dönüb arxaya baxmaq
Ona yaman çətindi
Xəyanətin bədəli
Ona ağır gəlmişdi
Bətnindəki körpənin
Hələ doğulmamışdan
O, hökmünü vermişdi:
"Xəyanətin meyvəsi
Mənə övlad olmasın
O, vəfasız oğlanın
Nişanəsi qalmasın"
Durub evinə getsə
Bitəcəkmi acılar
Ağlında fırlatdığı
O, bitməyən suallar
Vicdanın qarşısında
Verilən imtahanlar...
Bu ruhun ərməğanı
Bitməyən sualların
Cavabını kim verər
Həyat bir imtahandır!
Ömür bir imtahandır!
Vicdanın tənəsindən
Qaçıb qurtarmaq çətin
O içində qaynayan,
Daşan acı nifrətin
Varlığında uyuyan
Bu acı fəlakətin
Bir ana əlləriylə
Ölümə sürüklənən
Nifrətə qurban gedən,
Lazımsız əşya kimi
Gözləri baxa-baxa
Balıqlara yem gedən
O dilsiz körpənin nəydi günahı?

Əslində Şahnabatın həyatı ilə bağlı məqamlar bu hissədə başa çatır. Biz Şahnabatı son dərəcə ağır bir vəziyyətdə görürük. Bundan sonra onun həyatı necə olacaq, harada yaşayacaq, özünü bərpa edə biləcəkmi? Bəlkə də ömürlük analıq hissindən məhrum olacaq, bəlkə də həyatının elə bir vaxtı gələcək ki, o öz övladının qatili kimi vicdan cəzasından qurtulmaq naminə bir körpəni götürüb himayə edəcək.

Mahatma Qandi haqqında belə bir əhvalat danışılır ki, günahsız bir uşağın qatili olan şəxs onun yanına məsləhətə gəlir. Vicdanın cəzasından necə qurtulacağı ilə bağlı məsləhət istəyir. Mahatma Qandi dünyanın məşhur filosofudur. O, həyatın gəldi-gedərliyi, insanların başına gələnlər haqqında təsəvvürü olan həyat adamıdır. Ona görə də həmin şəxsə məsləhət görür ki, kimsənin bir körpəni götürüb böyütsün. Ancaq öz övladı kimi yox, qatili olduğu uşağın əslinə-nəslinə uyğun böyütsün. Əlbəttə, sözün həqiqi mənasında, doğmalıq hissləri ilə böyütsün. Doğrudur, bununla da həmin şəxs vicdanının cəzasından qurtula bilməz. Amma hər halda nisbətən öz günahını başa düşdüyünə bu ən yaxşı sübutdur.

Biz deyə bilmərik Şahnabat həyatının sonrasını necə yaşayacaq. Amma çox güman ki, Mahatma Qandinin yanına məsləhətə gəlmiş şəxsin yaşadığı hisslər onun da varlığında təzahür edə bilər. Yalnız bununla o sonrakı həyatı üçün günahını yüngülləşdirmiş olardı.

***13.03.2023***

***(Davamı var)***